

*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 iyul 2019-cu il № 55 (2372) Qiymət i 30 qəpik


## Birinci vitse-prezident Mehriban Əliyeva: Ümummilli lider Heydər Əliyev bütün ömrü boyu xalqına, Vətəninə sədaqətlə xidmət edib

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün ömrü boyu xalqına, Vətəninə sədaqətlə xidmət etmişdir. Müasir Azərbaycan tarixinin bütün səhifələrində, istər iqtisadiyyat, istər xarici siyasət, istər elm və mədəniyyətdə onun silinməz izlərini görürük.*

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində edilən paylaşımda yer alıb.

Paylaşımda qeyd edilir ki, Heydər Əliyevin nailiyyətləri və qələbələri Azərbaycanın tarixində, Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq, gələcək nəsillər üçün mərdlik, müdriklik, vətənpərvərlik nümunəsi olacaqdır.

## Milli Məclisdə Azərbaycan və Gürcüstan deputatlarının görüşü olub

İyulun 15-də Milli Məclisdə Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin nümayəndə heyəti ilə görüşüblər. Nümayəndə heyətinə Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Sofio Katsarava başçılıq edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov münasibətlərimizin bütün sahələrdə yüksək səviyyədə qurulduğunu qeyd edib, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişaf etdiyini vurğulayıb.

Gürcüstan parlamentinin sədr müavini, Gürcüstan-Azərbaycan parlament dostluq qrupunun sədri Zviad Dzidziquri parlamentlərarası əlaqələrin daha intensiv xarakter daşıdığını bildirib. O, ölkələrimiz arasında əməkdaşlığın durmadan genişləndiyini vurğulayıb.

Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Sofio Katsarava həm beynəlxalq təşkilatlarda, həm də ikitərəfli əlaqələrdə deputatlarımızın çox səmərəli əməkdaşlıq etdiyini bildirib. O, bütün məsələlərdə Azərbaycanın dəstəyini hiss etdiklərini və bunu qiymətləndirdiklərini qeyd edib. Vurğulayıb ki, Gürcüstanla Azərbaycan bütün məsələləri dostluq və əməkdaşlıq şəraitində həll etməyə qadirdir.

# Hərbi Hava Qüvvələrində də döyüş hazırlığının səviyyəsi daha da yüksəlir



*Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasını təmin edib. Azərbaycan Ordusunun hərbi hissələri hazırda Azərbaycan Prezidenti İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsindədir. İndi Azərbaycan Ordusunun maddi-texniki bazası hərtərəfli müasirləşdirilib, döyüş qabiliyyəti artıb. Yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Ordusu bu gün dünyanın ən güclü orduları sırasındadır.*

Azərbaycanda ordu quruculuğu prosesi planlı surətdə davam etdirilir. Ordumuzun döyüş hazırlığı üzrə bütün təlimləri NATO-nun döyüş hazırlığı sənədlərinə uyğun keçirilir. Ümumiyyətlə, Azərbaycan Ordusunun hərbi hissələrində şəxsi heyətin döyüş hazırlığı, fiziki hazırlıq işi və təlimlər NATO standartlarına uyğunlaşdırılıb.

Azərbaycan Ordusunun rəhbərliyi NATO standartlarına uyğun hərbi təlimlərin keçirilməsinə xüsusi diqqət yetirir. Hərbi təlimlərdə hərbi hissələrin döyüş hazırlığının səviyyəsi yoxlanılır, döyüş texnikalarının, müasir silahların tətbiqi imkanları öyrənilir, tapşırıqların daha operativ və səmərəli yerinə yetirilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyətin və təminatın təşkili səviyyəsi yoxlanılır.

**(Ardı 4-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Ali Baş Komandanın tapşırığına əsasən hərbi hissələr yoxlanılır

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun hərbi hissələrinin döyüş qabiliyyəti, silah və hərbi texnikasının vəziyyəti, eləcə də onların döyüşə hazırolma səviyyəsi yoxlanılır.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyulun 16-da hərbi hissələrdən birində olan Müdafiə Nazirliyinin rəhbərliyi öncə burada ucaldılan ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, xatirəsinə hörmət və ehtiramlarını ifadə ediblər.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissədə şəxsi heyətin döyüş hazırlığını, mənəvi-psixoloji durumunu yoxlayıb, sosial-məişət şəraiti ilə tanış olub və bu istiqamətdə qarşıda duran tapşırıqları bir daha vəzifəli şəxslərə çatdırıb.

Müdafiə naziri qərargah binası, döyüş texnikaları üçün saxlanclar, silah-sursat anbarı, avtomobil parkı, tibb məntəqəsi, əsgər yataqxanası, yeməkxana, hamam-camaşırxana kompleksi, digər inzibati və xidməti obyektlərə baxış keçirib, eləcə də qoşunların döyüşə hazırolma səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birlikdə nahar edib.

## Azərbaycan regionda və MDB məkanında ilk ölkə kimi ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Könüllü Milli Hesabat təqdim edib

İyulun 15-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Nyu-Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatı uğurla təqdim olunub və iştirakçı ölkələrin, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müsbət qiymətləndirilib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov hesabat barədə təqdimatla çıxış edərək, son dövrlərdə ölkəmizdə inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artımın, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsiplərinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə fəaliyyətin tənzimlənməsi və məhkəmə-hüquq sistemində aparılan islahatların dərinləşməsi barədə ətraflı məlumat verib. Eyni zamanda, nümayəndə heyətinin rəhbəri Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində əsas çətinliklərdən bəhs edərək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyətin nümayəndələrini bir daha məlumatlandırıb, münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını diqqətə çatdırıb. BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi 822, 853, 874 və 884 saylı məlum qətnamələrin indiyədək yerinə yetirilmədiyi bir daha Forum iştirakçılarının diqqətinə çatdırılıb.

Səfər çərçivəsində Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin rəhbəri Yaşar Əliyev, Ədliyyə nazirinin müavini Toğrul Musayev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, Nazirlər Kabinetinin şöbə müdiri Şahin Sadıqov, İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynovun təmsil olunduğu nümayəndə heyəti ilə BMT-nin bir sıra yüksək səviyyəli nümayəndələri və digər üzv dövlətlərin nümayəndə heyətləri arasında ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.

Onu da qeyd edək ki, ölkəmiz BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin sentyabrında keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub, bu məqsədlərdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

*Nümunəvi xidmət*

## "Ölkə başçısının diqqət və qayğısı qələbə ruhumuzu daha da artırır"



*Bu gün Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı, imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi qərarlar, iqtisadi gücü daim artan ölkəmizin fəal və məqsədyönlü siyasət kursuna malik olması cəmiyyətin bütün üzvlərinin, o cümlədən hərbçilərin də etibarlı müdafiə sistemi ilə əhatə olunmasına şərait yaradıb. Bu yaxınlarda ölkə başçısının bütün güc strukturlarının, o cümlədən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin dövlət büdcəsindən maliyyələşdirilən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə imzaladığı Sərəncam da bunun bariz nümunəsidir.*

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ceyhun Məmmədov bu məsələyə münasibət bildirərək qeyd etdi ki, bu gün uğurla aparılan sosial siyasət kursu və görülən işlər bir daha təsdiq edir ki, dövlət başçısı hər zaman xalqının, eyni zamanda torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparan hərbi qulluqçularının yanındadır. "Nəzərə alsaq ki, ölkəmiz müharibə şəraitində yaşayır, işğaldan əziyyət çəkir, Ali Baş Komandanımızın bu addımı ölçüyəgəlməzdir, öz hərbi qulluqçusuna ən yüksək diqqət və qayğıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı və kompleks tədbirlər ölkəmizin dayanıqlı inkişafına, əhalinin, cəmiyyətin əsas aparıcı qüvvəsi olan hərbi qulluqçuların da həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfələr verir".

"Bu gün şəxsi heyət yaxşı bilir ki, torpaqlarımızın işğaldan azad edilməsi qarşımızda duran ən mühüm vəzifədir", - deyə əsgər Ceyhun Məmmədov sözünə davam etdi. - Bu baxımdan şəxsi heyətin təlim-tərbiyəsinə cavabdehlik daşıyan komandir və zabitlərimiz üzərlərinə düşən böyük məsuliyyəti hiss edirlər. Komandir heyəti əsgərləri milli mənəvi dəyərlərimiz ruhunda tərbiyə etməyə çalışır. Şəxsi heyətin elə bir üzvü yoxdur ki, hansı amal və məqsəd uğrunda xidmət etdiyini, mübarizə apardığını dərindən dərk etməsin. Hər bir zabit, gizir və əsgər çalışır ki, üzərinə düşən məsuliyyəti dərindən başa düşsün və öz vəzifə borcunu yerinə yetirsin. Biz bunu xalqımız və Ali Baş Komandanımız qarşısında həyata keçirəcəyimiz mənəvi borc hesab edirik. Ölkə başçısının diqqət və qayğısı qələbə ruhumuzu daha da artırır.

Ceyhun Məmmədov onu da qeyd etdi ki, Azərbaycan Ordusunda hər cür qəhrəmanlıq göstərməyə qadir olan oğullar var. "Bizim güclü dövlətimiz var, ölkəmizin iqtisadi qüdrəti artdıqca ordumuz da güclənir. Dövlət büdcəsindən ordunun ehtiyacları üçün ayrılan vəsaitin həcmi ildən-ilə artır ki, bu da Azərbaycan Ordusunun maddi-texniki təminatının daha da möhkəmlənməsi, kadr hazırlığının daha da yaxşılaşması deməkdir. Onun nəticəsidir ki, biz torpaqlarımızı düşmən tapdağından təmizləməyə, azad etməyə hazırıq. Bu gün bizim hər birimizin ürəyində qələbə arzusu, işğal olunmuş doğma Qarabağımızın azad edilməsi arzusu vardır. Bütün hərbi qulluqçular inanır ki, Ali Baş Komandanımızın rəhbərliyi altında xalqımızın qüdrətinə güvəndiyi, cəsarət və hünərinə bel bağladığı igid Vətən oğulları Vətəni bu bəladan xilas edəcək, bizi həsrətini çəkdiyimiz Qarabağımıza qovuşduracaq.

**Mayor
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişinin 50-ci ildönümü ilə əlaqədar tədbir keçirilib

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişinin 50-ci ildönümü ilə əlaqədar Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Tarixin 50 ili, 50 ilin tarixi" devizi altında keçirilən təntənəli mərasimdə Müdafiə Nazirliyinin rəsmiləri, general, zabit və kursantlar, eləcə də mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Əvvəlcə hərbi məktəbin qərargahının qarşısında ucaldılmış Ulu Öndərin möhtəşəm abidəsi ziyarət olunub, qarşısına qızılgüllər düzülüb, xatirəsinə ehtiram ifadə olunub.

Mərasim iştirakçıları unudulmaz Heydər Əliyevin və



Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad edib, dövlət himni oxunub. Sonra "Tarixin 50 ili, 50 ilin tarixi" adlı videoçarx nümayiş olunub.

Təntənəli mərasimdən əvvəl Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani ümummilli liderimiz Heydər Əliyevin Vətənə və xalqa həsr olunan mənalı ömür yolu barədə ətraflı məlumat verib və Ulu Öndərin siyasi kursunun bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini nəzərə çatdırıb.

Qeyd olunub ki, Azərbaycanın iyirminci əsrdəki inkişafının əsası məhz 1969-cu ilin iyulun 14-də qoyulub. Həmin tarixdə siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev xalqımızın həyatında möhtəşəm intibaha nail olmuş, milli, müstəqil dövlətin bərpası üçün zəruri olan bütün işləri görmüşdür. 1969-cu ilə qədər SSRİ-nin aqrar respublikası kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir diyara çevrilmişdir. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı gələcəyinin başlanğıcı kimi mühüm əhəmiyyət kəsb edir.

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev çıxış edərək vurğulayıb ki, Ulu Öndərimizin ölkəmizə rəhbərliyinin birinci dövrü, eyni zamanda, milli özünüdərkin oyanmasının, soykökə qayıdışın başlanğıcı dövrüdür. Dahi rəhbərin bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Uzaqgörən böyük şəxsiyyət həmin dövrdə bütün ideoloji, siyasi maneələrə sinə gərərək Azərbaycan xalqının milli inkişaf konsepsiyasını irəli sürmüş, ictimai şüurdakı qorxunu aradan qaldırmış, cəmiyyəti bütün sahələri üzrə gələcək mənəvi və iqtisadi yüksəlişlərə ruhlandır-



mışdır. Hər bir Azərbaycan vətəndaşına belə bir inam aşılanmışdır ki, bu xalq nə vaxtsa öz azadlığına qovuşacaq.

Müdafiə nazirinin müavini xalqımızın böyük oğlu Heydər Əliyevin ötən əsrin 70-ci illərində yaratmış olduğu indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin xalqımızın və dövlətimizin taleyindəki müstəsna əhəmiyyətindən geniş bəhs edərək bu hərbi təhsil ocağının müasir Azərbaycan Ordusunun yaranmasında və formalaşmasında müstəsna rolundan danışıb.

Mərasim iştirakçıları nazir müavininin Ulu Öndərlə bağlı xatirələrini maraqla dinləyiblər.

Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Rasim Əliyevin də xalqımızın xilaskar oğlu barədə xatirələri tədbir iştirakçılarında xoş təəssüratlar yaradıb.

Respublikanın Xalq artisti Mübariz Tağıyevin və Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təqdim etdiyi "Nəğmələrdə, ürəklərdə yaşayır Ulu Öndər" adlı ədəbi-musiqili-xoreoqrafik kompozisiya şəxsi heyətə təqdim edilib.

Yekunda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Fizuli Salahov çıxış edərək, tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

# Kral Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycanın xarici siyasət prioritetləri barədə danışılıb

*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ölkəmizin Böyük Britaniyadakı səfirliyinin təşəbbüsü ilə Londonda, dünyanın ən qabaqcıl beyin mərkəzlərindən biri olan Kral Beynəlxalq Münasibətlər İnstitutunda (Chatham House) "Yeni Reallıqlar altında Azərbaycanın xarici siyasət prioritetləri" mövzusunda çıxış edib.*

AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən, Azərbaycan diplomatiyasının 100 illiyinin böyük təntənə ilə keçirildiyini bildirən Hikmət Hacıyev Azərbaycanın bugünkü xarici siyasətini formalaşdıran amillər və ölkəmizin xarici siyasət prioritetləri barədə qonaqlara məlumat verib. Ölkəmizin xarici siyasətdə kənarlaşdırıcı deyil, inklüziv yanaşmanı rəhbər tutduğunu bildirən H.Hacıyev bu gün Azərbaycanın dünya dövlətləri ilə balanslaşdırılmış və faydalı münasibətlərinin olduğunu nəzərə çatdırıb.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri qeyd edib ki, təbii sərvətlərə malik olan ölkələrin heç də hamısı Azərbaycan qədər müvəffəqiyyətli olmur və bu mənada ölkəmiz inkişaf etməkdə olan ölkələr üçün model təşkil edir.

Şöbə müdiri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycanın xarici siyasətinin ən əsas hədəfi olduğunu bildirib və auditoriyaya sülh danışıqlarının son vəziyyəti barədə məlumat verib. O, yalnız ədalətli sülhün dayanıqlı sülh olduğunu nəzərə çatdıraraq əlavə edib ki, Azərbaycan substantiv danışıqlar deyərkən Ermənistanı qoşunlarının işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılmasını və işğala son qoyulmasını nəzərdə tutur. H.Hacıyev Ermənistanı işğal siyasətindən əl çəkməyə və regional inteqrasiyadan maksimum faydalanmağa çağırıb.

Daha sonra H.Hacıyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın beynəlxalq tərəfdaşlıqları, qonşu ölkələrlə münasibətləri, Avropa İttifaq və Azərbaycan arasında tərəfdaşlıq sənədinin razılaşdırılması ilə bağlı hazırkı vəziyyət, ölkəmizin Şərq Tərəfdaşlığındakı rolu, onun inkişaf etməkdə olan ölkələrlə diplomatik münasibətlərinin perspektivləri, habelə Brexit-dən sonra Azərbaycan və Böyük Britaniya arasında münasibətlər, "Bir kəmər, bir yol" təşəbbüsü və sair barədə sualları cavablandırıb.

# Hərbi Hava Qüvvələrində də döyüş hazırlığının səviyyəsi daha da yüksəlir



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artması, yeni müasir silahlarla təchiz edilməsi, ölkəmizin hərbi qüdrətinin artması, hərbi təlimlərdə qoşun, birlik və birləşmələrin yüksək döyüş hazırlığı göstərməsi, Qarabağ probleminin həlli məsələsində təşəbbüsü ələ alması xalqımızı sevindirir, Ermənistanı və onun havadarlarını isə narahat edir.



Bu günlərdə Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) aviabazalarından birində yerləşən Su-25 hücum təyyarələri döyüş atışlı uçuş məşqləri keçirib.

Uçuş heyətinin döyüş hazırlığının artırılması və yüksək səviyyədə saxlanılması məqsədilə uçuşlar gündüz və gecə vaxtı icra olunub.

Bazalanma aerodromlarından qrup şəklində uçuşlar edən təyyarələr poliqonlarda işarələnmiş və havadan işıqlandırılan şərti düşmənin yerüstü hədəflərinə müxtəlif kalibrli aviasiya bombaları və raketlərlə hava zərbələri endiriblər.

Planlı məşqlər zamanı qarşıya qoyulan tapşırıqlar uçuş heyəti tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib və döyüş atışlarının nəticələri yüksək qiymətləndirilib.

Bütün bunlar onu göstərir ki, bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər. Bunu ölkə miqyasında keçirilən komanda-qərargah hərb oyunları və taktiki təlimlər də təsdiq edir. Bu gün müasir döyüş taktikası tətbiq edilir, dünyada ən qabaqcıl təcrübə öyrənilir və Azərbaycan Ordusunda istifadə olunur. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir döyüş qabiliyyətinə malik olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənini məsuliyyətlə qoruyur.

**"Azərbaycan Ordusu"**

## "Bir qrup insanın hüququ digər bir qrupun hüquqlarının pozulması hesabına təmin oluna bilməz"

*Ermənistanın Xarici İşlər naziri Z.Mnatsakanyan ATƏT-in Slovakiyada keçirilmiş qeyri-formal nazirlər görüşündə çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsinin insanlara aid olduğunu və orada yaşayanların insan hüquqlarının müdafiə olunması məsələsini qeyd edib.*

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bununla bağlı KİV-in suallını cavablandırıb.

Leyla Abdullayeva deyib: "Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində insan hüquqlarından bəhs edən Ermənistan naziri əgər ATƏT məkanında insan hüquqları və demokratik dəyərlərin qorunması ilə bağlı söylədiklərinə həqiqətən inanırsa və bu xüsusda real işlər görmək istəyirsə, o zaman hələ də Ermənistanın silahlı qüvvələrinin hərbi işğalı altında saxlanılan Dağlıq Qarabağ və yeddi ətraf rayonumuzda etnik təmizləməyə məruz qalaraq əzəli torpaqlarından, mülklərindən didərgin salınmış yüz minlərlə azərbaycanlı məcburi köçkünün fundamental insan hüquqlarının kobudcasına pozulması məsələsini gündəmə gətirməlidir.

İnsan hüquqları universal xarakter daşıyır, bölünməzdir və bu məsələdə hər hansı şəkildə ayrı-seçkiliyə yol verilməməlidir. Dağlıq Qarabağın erməni icmasının insan hüquqları məsələsini qaldıran erməni naziri bu bölgənin azərbaycanlı icmasının öz evlərində yaşamaq hüququnun kobudcasına pozulduğunu niyə dilə gətirmir? Əlbəttə, bu sualın cavabı bizə və bütün beynəlxalq ictimaiyyətə bəllidir. Bir qrup insanın hüququ digər bir qrupun hüquqlarının pozulması hesabına təmin oluna bilməz.

Yalnız Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması münaqişənin həlli ilə əlaqədar bir sıra substantiv məsələlərin, eləcə də Dağlıq Qarabağın hər iki, azərbaycanlı və erməni icmasının sülh şəraitində birgə yaşayışı və hüquqları məsələsinin həllinə əlverişli şərait yarada bilər"..

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub

***16 iyul 2019-cu il.***

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

## Silahlı Qüvvələrin Hərbi Akademiyasında ingilis dili kursunun buraxılış mərasimi keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasında Fövqəladə Hallar Nazirliyinin (FHN) hərbi qulluqçuları və mülki əməkdaşları üçün təşkil olunan təməl və orta səviyyələr üzrə ingilis dili kursunun buraxılış mərasimi keçirilib.

Mərasimdə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kursların peşəkar xarici dil mütəxəssisləri tərəfindən aparıldığını vurğulayan Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev bu kursların təşkili və keçirilməsinin əhəmiyyətini qeyd edib. Hərbi Akademiyanın rəisi məzunları təbrik edib və onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıb.

FHN-nin Akademiyasının rəisi general-mayor Baba Salayev kursların keçirilməsində əsas məqsədin əməkdaşların xarici dil biliklərinin artırılması olduğunu bildirib.

Qeyd olunub ki, bu kimi fəaliyyətlər iki qurum arasında əməkdaşlığın inkişafı və möhkəmlənməsinə xidmət edir və gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub.

Sonda məzunlara diplom və sertifikatlar təqdim olunub.

## "ABŞ indiyədək Azərbaycana heç bir silah satmayıb"

*ABŞ konqresmeni Bred Şermanın Azərbaycana "Dağlıq Qarabağ hava məkanında mülki təyyarələri təhdid edə biləcək" ABŞ silahlarının satılmasına qadağa qoyulması məqsədilə qanunvericilik təşəbbüsü ilə çıxış etməsi məsələsinə AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən münasibət bildiriblər.*

Nazirliyin açıqlamasında qeyd edilib: "Bu cür təşəbbüslə çıxış etmək əslində təəccüb doğurur. Çünki ABŞ indiyədək ölkəmizə heç bir silah satmayıb. Bununla belə, Azərbaycan dünyanın qabaqcıl hərbi texnologiyalarına malik ölkələrindən kifayət qədər silah və döyüş vasitələri alır.

Hərbi Hava Qüvvələrimizin silahlanmasına daxil edilən müxtəlif tipli hava hücumundan müdafiə vasitələri hava məkanımızı tam qorumağa və təhdid yaranarsa, dərhal cavab tədbirləri görməyə qadirdir.

Bundan əlavə, konqresmen bilməlidir ki, Dağlıq Qarabağ Azərbaycan ərazisidir və münaqişə bölgəsi olduğundan Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) tərəfindən mülki aviasiya vasitələrinin bu istiqamətdə uçuşlarına uzun müddətdir tam qadağa qoyulub".

# Ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlişinin 50-ci ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

*Böyük tarixi şəxsiyyətlər tarixin axarını xalqının mənafeyinə yönəldə bilir. Ona görə də tarix yaradan belə tarixi şəxsiyyətlər heç zaman unudulmur, onlar əbədiyyən yaşayırlar... Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişinin 50-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində silsilə tədbirlər keçirilib. Tədbirlərdə öncə ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*




Naxçıvan Qarnizonu qoşunlarında ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsinin 50 illiyi münasibətilə silsilə tədbirlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə çıxış edənlər bildiriblər ki, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi, uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində güclü müdafiə qüdrətinə və peşəkar döyüş qabiliyyətinə malik Azərbaycan Ordusu formalaşıb. Fəxrlə deyə bilərik ki, ordu sıralarında xidmət edən gənclərimiz ümummilli lider Heydər Əliyevin ideyalarına həmişə sadiqdirlər, Vətən, xalq, dövlət qarşısında əsgəri borclarını şərəflə yerinə yetirirlər.




Tədbirdə ümummilli liderimiz Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən sənədli filmə baxış olub.

Silsilə tədbirlərin davamı kimi nümunəvi xidməti ilə fərqlənən əsgərlərimizin bir qrupu Heydər Əliyev Muzeyini ziyarət edib, ümummilli liderimizin ana Vətənimiz Azərbaycana həsr etdiyi mənalı ömür yolunu özündə əks etdirən eksponatlarla yaxından tanış olublar.

* * *

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 14 iyul 1969-cu ildə hakimiyyətə gəlməsinin 50-ci ildönümü münasibəti ilə Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə bir qrup əsgər və matros Heydər Əliyev Mərkəzində ekskursiyada oldular. Bu tədbir Ulu Öndərin ömür yolu ilə - xalqa, dövlətə xidmətiylə daha yaxından tanış olmağa yönəldilmişdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin, irsinin dərindən öyrənilməsi və tədqiqi istiqamətində fəaliyyətə göstərən mərkəzdə şəxsi heyət Heydər Əliyev Muzeyi və sərgi zalları ilə tanış oldular.

Mərkəzin əməkdaşı əsgər və matroslara qeyri-adi, orijinal quruluşa malik olan bina haqqında məlumat verdi. Bildirildi ki, müasir Bakının rəmzlərindən biri hesab edilən Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və fotoarxiv, sənədlər, eləcə də müxtəlif eksponatlar nümayiş etdirilir. Mərkəzdə dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətinə dair məlumatlar ən son texnoloji yeniliklərdən istifadə edilməklə interaktiv formada təqdim olunur.

İştirakçılar, həmçinin ümummilli lider Heydər Əliyevə müxtəlif ölkələrin dövlət və hökumət başçıları, siyasi xadimləri tərəfindən verilmiş hədiyyələrin nümayiş etdirildiyi ekspozisiya zalı ilə də tanış oldular.

Muzeydə Ümummilli Liderə aid geyimlər, o cümlədən onun iş masası, dahi şəxsiyyətin müxtəlif illərdə təltif olunduğu orden və medallar ekspozisiyanın ən qiymətli nümunələri sırasındadır.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillər də əsgər və matrosların marağına səbəb oldu.

Ziyarətçilər Heydər Əliyev Muzeyi ilə yaxından tanış olduqdan sonra Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov bildirdi ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi müasir tariximizin çox mühüm dönüş nöqtələrindən biridir. "Müasir Azərbaycan tarixinin son 50 ili ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1960-cı illərdə Azərbaycan keçmiş ittifaq respublikaları arasında ən geridə qalan respublikalardan biri idi. Lakin Ulu Öndərin 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə müasir tariximizdə dönüş baş verdi...

Bu gün ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi yol Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əldə edilən nailiyyətlər Heydər Əliyev siyasətinin nəticəsidir. Bütövlükdə, Azərbaycanın uğurlu inkişafının təməlində Heydər Əliyev siyasəti dayanır. Bu, elə bir siyasətdir ki, onun əsasında Azərbaycan bundan sonra da uzun illər öz yüksəlişini təmin edəcək".

İştirakçılar daha sonra Heydər Əliyev Mərkəzində nümayiş etdirilən "Azərbaycan inciləri" və "Mini Azərbaycan" sərgiləri ilə tanış oldular. Sərgilər vasitəsilə qədim tarixə, mədəniyyətə, ədəbiyyata, adət-ənənələrə sahib olan ölkəmiz haqqında maraqlı məlumatlar əldə etdilər.

* * *

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzi ümummilli lider Heydər Əliyevin 14 iyul 1969-cu ildə hakimiyyətə gəlməsinin 50-ci ildönümü münasibəti ilə "N" hərbi hissəsində də tədbir keçirdi.

Tədbirdə hərbi hissənin şəxsi heyəti, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və ictimaiyyətin nümayəndələri iştirak edirdi.

Polkovnik-leytenant Zaur Həmidov tədbiri açaraq 1969-cu ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən danışdı. Bildirdi ki, dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanda bütün sahələrdə inkişaf başlayıb. "Dahi şəxsiyyət Heydər Əliyev, sözün həqiqi mənasında, böyük bir xalqın həyatında möhtəşəm dəyişikliyə nail olub, milli, müstəqil dövlətin qurulması üçün zəruri olan bütün işləri görərək möhkəm təməl yaradıb. 1969-cu ilə qədər keçmiş SSRİ-nin aqrar respublikası kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir ölkəyə çevrilib. Bu baxımdan, 1969-cu il iyulun 14-də ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir və qiymətləndiriləlidir..."



Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti mayor İlkin Qayıbov qeyd etdi ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi müasir tariximizdə yeni mərhələnin başlanmasına səbəb oldu. "Respublikada yeni yollar çəkildi, zavodlar, fabriklər işə salındı, yüzlərlə mədəniyyət mərkəzləri tikildi. Bakıda xüsusi memarlıq üslubu ilə fərqlənən binalar inşa edildi, onlarla yeni qəsəbələr salındı.

Ulu Öndərin milli-mənəvi dəyərlərimizin qorunması, azərbaycançılıq ideyasının təbliği istiqamətində atdığı cəsarətli addımlar, həyata keçirdiyi tədbirlər hər bir Azərbaycan vətəndaşında belə bir inam yaradırdı ki, bu xalq nə vaxtsa öz azadlığına qovuşacaq, müstəqil olacaq. Müstəqilliyi əldə etmək üçün isə möhkəm təməl, iqtisadi inkişaf, milli kadrlar, ziyalı nəsli, hüquqi baza yetişdirilməlidir. Ulu Öndər hələ sovet hakimiyyəti illərində Azərbaycan xalqının şüurunda məhz bu inqilabi dəyişikliyi yaratmağa nail olmuşdu".

Mayor İlkin Qayıbov vurğuladı ki, Ulu Öndər ölkəyə birinci dəfə rəhbərlik etdiyi dövrdə respublika gənclərinin bilavasitə Bakıda hərbi təhsil alması üçün o zamanlar mümkün olan bütün addımları ataraq, Azərbaycanda hərbi məktəbin açılmasına nail olmuşdu. "Həmin dövrdə Cəmşid Naxçıvanski adına Hərbi məktəbin yaradılması Azərbaycanda milli hərbçi kadrların yetişdirilməsinə çox böyük töhfə idi...

Ulu Öndərin nizami ordu kimi formalaşdırdığı ordu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha möhtəşəmliklə formalaşmaqdadır. 2016-cı ilin Aprel döyüşləri, Azərbaycan Ordusunun yaranmasının, Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan paradlar da təsdiqlədi ki, bu ordu torpaqları işğaldan azad etməyə qadirdir..."

Tədbirin bədii hissəsində Ulu Öndərin həyat fəaliyyətindən bəhs edən sənədli film nümayiş olundu, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi ilə yanaşı, tanınmış incəsənət nümayəndələri də maraqlı konsert proqramı ilə çıxış etdilər.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinə yola salınıblar

*Gənclərin sağlam böyüməsi, onların idmana olan marağının artırılması, hərbi vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsi məqsədi ilə Müdafiə Nazirliyi ilə Nəsimi rayon İcra Hakimiyyətinin birgə layihəsi əsasında Zabitlər bağında "Gənc Heydərçilər"in yay düşərgəsinə yolasalınma mərasimi keçirildi.*



Mərasimdə Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri, Nəsimi rayon İcra Hakimiyyətinin rəhbərliyi, yeniyetmələr, valideynlər, ictimaiyyət nümayəndələri və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak edirdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestri tərəfindən Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Artıq 6-cı ildir ki, ön xətdə xidmət edən hərbi qulluqçuların övladları, şəhid olmuş hərbçilərin uşaqları, eləcə də rayonun aztəminatlı ailələrinin, təhsildə və idmanda fərqlənən, xüsusi istedadlı şagirdlərdən ibarət qrup "N" hərbi hissəsində təşkil olunan "Gənc Heydərçilər"in hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinə yola salınır. Düşərgədə iştirak edən uşaqlar xüsusi geyim, forma və lazımi idman ləvazimatları ilə təmin olunurlar. Hərbi hissə tərəfindən qabaqcadan bütün hazırlıq işləri görülür. Düşərgədə yeniyetmələr gündə 4 dəfə yüksək kalorili yemək, təzə meyvə və tərəvəz, süd məhsulları ilə təmin olunurlar. İstirahət dövründə onlar üçün təbiət qoynunda naharlar təşkil olunur. Uşaqların təlim-tərbiyə işləri ilə rayonun orta məktəblərində çalışan idman və gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən müəllimlər, həmçinin hərbi hissənin zabitləri, çavuş və əsgərlərindən ibarət qrup məşğul olur. Həmçinin düşərgədə istirahət edən yeniyetmələrin mədəniyyət abidələrinə ekskursiyaları təşkil olunur. Bu isə məktəblilərin respublikamızın regionları ilə yaxından tanış olmalarına böyük imkan yaradır.

Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Rasim Əliyev tədbir iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayaraq bildirdi ki, bu layihə ənənəvi xarakter alıb. "Gənclərimizə olan xüsusi diqqət və qayğı dövlət gənclər siyasətinin əsasını təşkil edir. Bu layihəni ümummilli lider Heydər Əliyevin başladığı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin davam etdirdiyi gənclər siyasətinin tərkib hissələrindən biri hesab etmək olar. Bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi gənclər siyasəti Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində əhəmiyyətli rol oynayır. Gənc nəslin Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunmasına yönəldilmiş belə tədbirlər, təbii ki, milli ruhda formalaşmış Azərbaycan əsgərinin döyüş əzmini və Qələbə ruhunu yüksəldir. Bu gün siz tədbirin təşkil olunduğu rayonda hər cür şəraitlə təmin olunacaqsınız. Orada sizin istirahətinizlə bərabər çalışacağıq ki, hərb sənətiylə, hərbi xidmətlə, hərbi hissənin döyüş texnikası və silahları ilə tanışlığınız olsun. Siz düşərgədə ibtidai hərbi hazırlıq səviyyəsində biliklərə yiyələnəcəksiniz."

İdarə rəisi Müdafiə Nazirliyinin rəhbərliyinin düşərgədəki təəssüratların yeniyetmələrin gələcəkdə hərb peşəsini seçiminə vəsilə olacağına böyük inam bəslədiyini vurğuladı, onların hərbi vətənpərvərlik tərbiyəsində bu düşərgənin müstəsna rolu olacağını qeyd etdi: "Müdafiə Nazirliyinin hər bir hərbçisinin ən böyük arzusudur ki, Azərbaycan gəncləri xoşbəxt böyüsün, müasir elmlərə yiyələnsin və xüsusən də Azərbaycan xalqının milli maraqları çərçivəsində tərbiyə olunsunlar. Xalqımız, dövlətimiz üçün dəyərli vətəndaşlar olaraq cəmiyyətə atılsınlar. Müdafiə Nazirliyinin Nəsimi rayon İcra Hakimiyyəti ilə birgə həyata keçirdiyi bu tədbirin əsas qayəsi və mahiyyəti də məhz bundan ibarətdir. Sizlərə yaxşı yol, uğurlu istirahət arzulayıram".



Hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsində hərbçilərlə yaxından təmasda olmaq "Gənc Heydərçilər"in əsgərlərin gündəlik həyat və fəaliyyətləri, hərbi hissədəki şəraitlə, həmçinin hərbi hissənin döyüş texnikası və silahları ilə tanışlığı onlarda hərbi xidmət haqqında müsbət rəy formalaşdıracaq.

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov qeyd etdi ki, bu tədbir yeniyetmələrdə hərbi vətənpərvərlik ruhunu gücləndirir, onlarda hərbi peşəyə məhəbbət yaradır, eyni zamanda bu müddət ərzində hər biri hərbi xidmətlə də tanış olur. Bu tanışlıq mahiyyəti etibarı ilə onların vətənpərvər bir gənc kimi formalaşmasını təmin edir. İcra başçısı yeniyetmələrin hərbi xidmətə hazırlanmasında mühüm vasitə olan bu tədbirə görə Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi. Asif Əsgərov onu da qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeniyetmə və gənclərin sağlam böyüməsi, gənc nəslin Vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması istiqamətində böyük işlər görür ki, bunlar da ordu - ictimaiyyət münasibətlərini daha da möhkəmləndirir.

Valideynlərdən Amil Göyüşov gənclərimizə "Gənc Heydərçilər" adına layiq övladlar kimi böyüyüb formalaşmağı arzuladı. Elnarə Verdiyeva övladları Xəndan və Əfqanı hərbi formada görərkən ürəyinin dağa döndüyünü bildirdi. Günel Şəmiyeva övladının sabahımızın əsgəri olması ilə qürurlandı. Vəli Əsgərov bu düşərgənin yeniyetmələrdə hərbçi peşəsinə marağın artmasında öz töhfələrini verəcəyinə inanır. Xatirə Məmmədova oğlunu hərbi formada görərkən xəyalında əsgər anası olacağı günlərin xəyalını qurduğundan, Canpolad Sultanov övladının musiqi duyumundan, ən böyük arzusunun Qarabağda "Heyratı" muğamını ifa etmək olduğundan fəxrlə danışdılar. İlahə Novruzlu övladının Vətən, torpaq sevgisindən danışarkən gözlərinin içi gülürdü. Qardaşı Səxavəti yola salan Yeganə Ələsgərli bir gün onu işğaldan azad olunacaq torpaqlarımızda müqəddəs borcunu verəcəyinə inandığını vurğuladı. Sahilə Tahirova övladlarına bu şəraiti yaradan Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Müdafiə Nazirliyinin və Nəsimi rayon İcra Hakimiyyətinin rəhbərliyinə öz dərin minnətdarlığını bildirdi.




Şagirdlərlə də söhbət etdim. Məhəmməd Şəmizadə atasının yolunu davam etdirəcəyindən, gələcək həyatını hərb peşəsinə həsr etmək istəyindən söz açaraq dedi ki, bu tədbirdə mən hərbçilərlə daha yaxından ünsiyyətdə olacam, onların söhbətlərindən müəyyən biliklər əldə edəcəyəm. Müseyib Vəliyev yaxın gələcəkdə səngərləri sərhədlərə köçürəcək əsgərlərlə 14 gün unsiyyətdə olmağın sevincindən, gələcəkdə əsgər olaraq Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanacağından, Abid Abbaszadə hər gün qapıda qarşıladığı atasının zabit mundirini geyinib papağını başına qoymasından danışaraq qeyd etdi ki, atasının yolunu davam etdirmək niyyətindədir. İbrahim İsayev daxilindəki Vətən sevgisinin müqayisə olunmazlığından, Elturan və Niftalı Göyüşov qardaşları dərslərini əla qiymətlərlə başa vurmalarından, Həsən Həsənli qüdrətli ordumuzun sıralarında zabit kimi xidmət etmək istəyindən, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil alan Sənan Eyvazov işğaldan azad olunacaq əzəli torpaqlarımızda "Qarabağ şikəstəsi"ni ifa etmək arzusundan, Süleyman Sultanlı tarixlə yaxından maraqlandığını, bir gün mənfur qonşularımızın xalqımızın başına gətirdiyi müsibətləri dünyanın diqqətinə çatdırmaq istəyindən, Hüseyn Novruzlu hansı sahədə olmasından asılı olmayaraq Vətənimizə layiqli vətəndaş olub, adını yüksəklərə ucaldacağından danışdılar. Əli Osmanlı və Valeh Tahirov ordumuzun Aprel zəfərindən qürurla söz açdılar. "Bizim güclü ordumuz var və biz bununla fəxr edirik". Mahmud Mirzəzadə "Vətən mənim üçün nə edib yox, mən Vətən üçün nə etmişəm" fikri ilə yaşamasından, Xəndan və Əfqan İbrahimli qardaşları Vətənə sevgilərindən, düşməndən qisas almaq hissi ilə yaşamalarından danışdılar.

Yola düşməzdən əvvəl "Gənc Heydərçilər" Fəxri xiyabanda ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət etdilər. Abidə önünə əklil və tər gül dəstələri qoydular.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Azərbaycan mətbuatı - 144*

# Mətbuat - mənəvi kamilliyin cəfakeşi

*"Əkinçi" qəzetinin nəşrə başlaması böyük tarixi hadisə idi. Milli mətbuatın yaranması maarifləndirmə işinin daha səmərəli təşkilində xüsusi əhəmiyyətə malik oldu. Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin nəşri həm də ədəbiyyatımızın, dilimizin inkişafına, oxucuların düşüncə tərzinin genişlənməsinə, milli-mənəvi dəyərlər əsasında şəxsiyyət kimi formalaşmasına təsir göstərdi.*




Dövrün ziyalılarının ömür payını xalqına işıq edənlərin yazdığı məqalələr maarifləndirmə prosesinin əhatəliyini, məzmununu təmin edirdi. Başlanğıcını "Əkinçi" qəzetindən götürən qəzetlərin əksəriyyəti onun amalının davamçısı oldu...

Azərbaycanda müstəqillik uğrunda əvvəl gizlin, sonra aşkar mübarizə milliazadlıq hərəkatı səviyyəsində genişləndi. Bu mübarizənin mütəşəkkilliyinə "Əkinçi"nin amalıyla fəaliyyət göstərən mətbuatın da böyük təsiri oldu. İmperiyanın ciddi qadağalarına baxmayaraq yeni qəzetlər nəşrə başladı. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra nəşrə başlayan bu qəzetlər də həmin amalın davamçıları oldu; Azərbaycan mətbuatı həm məzmun, həm də ideya baxımından tamamilə yeniləndi. Bu yenilənmə çağdaş jurnalistikamızda yeni bir mərhələ kimi tarixləşdi. Yeni düşüncə tərzi, fakt və hadisələrə milli-xəlqi mövqedən yanaşma, onları məhz bu baxımdan dəyərləndirmə - çağdaş jurnalistikamızı belə xarakterizə etmək olar.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasıyla Azərbaycan Ordusu yarandı. Azərbaycan Demokratik Respublikasının mənəvi varisi olan Azərbaycan Respublikasının ordusu Cümhuriyyət ordusunun varisi oldu. Məhz bu səbəbdən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildi, Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi böyük təntənə ilə qeyd olundu. Azərbaycan mətbuatı bu tarixi hadisələrə olduqca həssas yanaşdı, bu tarixi hadisənin tarixləşməsində peşəkar vasitəçi oldu.

Çağdaş jurnalistikamız milli mentalitetə əsaslanan dünyagörüşün formalaşmasının cəfakeşidir. Milli mentalitetimizi müəyyənləşdirən başlıca xüsusiyyət vətənsevərlikdir. Mətbuatımız gənclərin vətənpərvərlik duyğularının yüksək səviyyədə inkişafında, gənclərin yüksək Vətən sevgisinə malik şəxsiyyət kimi formalaşmasında bütün forma və metodlardan istifadə edir.

Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunu 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt zəfəri, son illərdə həyata keçirilən islahatların nəticələri təsdiqləyir. Çağdaş jurnalistikamızın mühüm tərkib hissələrindən olan hərbi jurnalistikamız bu mühüm amili həmişə diqqət mərkəzində saxlayır, Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu haqqında təhlilə söykənən əhatəli məqalələr, qələbə ruhunu əhatələyən reportajlar, publisistik məqalələr dərc olunur ki, bunların da hər biri ordu quruculuğuna jurnalistikanın xidməti kimi qəbul edilməlidir.

22 İyul Mətbuat Günüdür.

22 iyul cəmiyyətin mühüm tərkib hissələrindən olan jurnalistikanın peşə bayramı günüdür. "Azərbaycan Ordusu" qəzeti 27 ildi Azərbaycan əsgərinin mənəvi dünyasının söz cəfakeşidir. Bu bayram münasibətilə qəzetin yaradıcı kollektivini səmimiyyətlə təbrik edirəm. Əminəm ki, Böyük Qələbədən ilk reportajı "Qızıl əsgər", "Savadlı qızıl əsgər" məcmuələrinin, tam artilleriya generalı Əlağa Şıxlinskinin rəhbərliyiylə nəşr olunan "Hərbi Bilik" jurnalının mənəvi davamçısı olan "Azərbaycan Ordusu" qəzetində oxuyacağıq.

**Gülsürə HÜSEYNOVA,**
**Hərbi Akademiyanın adyunktu**

# "Əkinçi"dən başlayan yol

Zaman bəşərə verilən ən gözəl fürsətdir. Onu vaxtında dəyərləndirmək və yerində istifadə etmək böyük hünər, cəsarət tələb edir. Filosof, Konfutsiyə görə, "Heçnə nə gec olur, nə də tez. Hər şey vaxtında olur". Bir şeirdə deyildiyi kimi: "Tarixin gedişinə təsir göstərə bilənlər dünyaya vaxtında gələnlərdi". Həsən bəy Zərdabi kimi...

Milli mətbuatın yaradılması zərurətini Həsən bəy Zərdabi də çox yaxşı anlamışdı. Əsarət altında yaşamaq xalqa qəlpə yaraları qədər əzab verirdi. Həsən bəy Zərdabi çətin və məşəqqətli sınaqlarla dolu 7 illik əziyyətdən sonra Azərbaycan mətbuatının əsasını qoymağa müvəffəq oldu. Reallaşan arzu neçə-neçə arzunun başlanğıcı nöqtəyə gəldikdə isə oradan min olur. Hər biri də xalqın rifahı, gələcəyi üçün olan arzular. Yeni məktəbin əsası qoyuldu. 1875-ci ilin iyulundan başlandı jurnalistlərlə xalqın əlaqələri. Mətbuatla əməkdaşlıq edənlər xalqa xidmət edir, dövlətə, dövlətçiliyə xidmət edir. Jurnalistin gördüyünü az sonra xalq da görür, jurnalistin yazdığı xalqındı...

Onlar gördükləri çətin və məsuliyyətli iş sayəsində hər kəsin övladı olmağı bacardılar.

Mətbuat cəmiyyətlə ələqə yaratmağın ən etibarlı yollarından biridir. Mətbuat azadlığın tribunasıdır. Bu azadlıq həm də qələmin qılınc üzərində təntənəsi hesab etmək olar...

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

*Hərbi texnikalar, silahlar*

# 120 mm-lik SPEAR MK2 minaatanı



120 mm-lik SPEAR MK2 minaatanı Elbit şirkəti tərəfindən istehsal olunub. 2016-cı ildə Azərbaycanda keçirilən ADEX-2016 sərgisində nümayiş etdirilib. Baza şassisi kimi minaatan üçün İsrailin Plasan şirkəti yüngül zirehli Sand-Cat 4x4 maşınını təqdim edib. Minaatan arxa hissədə yük platformasında yerləşdirilib. Bundan başqa 120 mm-lik sistemli avtonom minaatan daha yüksək mobil platformalarda da quraşdırıla bilər. Yüksək taktiki mobilliklə dəqiq atəşaçmanı və effektli atəşi təmin edə bilir. Minaatan kompüterləşmiş nişangah sistemi və naviqasiya cihazlanmasına malikdir ki, kənar orientirləri özünə cəlb etmədən hədəfə qarşı tuşlana və sərbəst işləyə bilər. Bundan başqa minaatan müxtəlif döyüşü idarəetmə sistemlərindən də istifadə edə bilər və özünə atəşi texniki idarəetmə, atəşi planlaşdırma, prioritet məqsədləri müəyyənetmə prosesini və atəşin nəticələri haqqında proqnozu daxil edir. SPEAR MK2 bir dəqiqə ərzində hücuma keçə bilər. Komanda və idarəetmə sistemi, avtomatik tuşlama sistemi ilə təchiz edilib ki, bununla xarici mənbələrdən, pilotsuz uçuş aparatları və ya artilleriya radarlarından məqsədli göstərişlər ala bilər. Atəş tezliyi dəqiqədə 15 atış, atəş uzaqlığı isə 12 kilometrdir. Onun idarə edilməsi üçün heyətin 2-3 nəfəri bəs edir.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində mövcud olan dözülməz şərait, haqsızlıq, mütəmadi məruz qaldıqları təhqirlər səbəbindən əsgər və zabitlər müxtəlif bəhanələrlə hərbi xidmətdən yayınmağa çalışırlar.

İşğalçı ordunun hərbi hissələrindən birinin əsgəri Sergey Sardaryan vaxtında məzuniyyətdən geri qayıtmayıb. Fərarilik maddəsi ilə haqqında cinayət işi açılan əsgər araşdırma zamanı izahatında xəstəliyi səbəbindən mülki xəstəxanada cərrahi əməliyyat olunduğunu yazıb.

S.Sardaryan hərbi hissəyə qaytarıldıqdan sonra tibb xidməti polkovniki Arsen Yeqoryanın tapşırığı ilə Ağdərə hospitalına aparılaraq izahatında yazdıqlarının düz olduğunu təsdiq etmək məqsədilə müayinə edilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində törədilən cinayətlər hərbi prokurorluq müstəntiqlərinin əməlli-başlı biznesinə çevrilib.

Müstəntiqlərin külli miqdarda rüşvət müqabilində hərbi hissədə baş verən cinayətləri ört-basdır etməyə çalışması növbəti qalmaqala səbəb olub. Bu da öz növbəsində əsgər valideynləri tərəfindən narazılıqla qarşılanıb.

Valideynlərin yazılı müraciəti nəticəsində hərbi prokurorluğun müstəntiqi Noray Qasparyan müvəqqəti işdən uzaqlaşdırılıb və onun icraatında olan cinayət işləri yenidən araşdırılır.

Bir çox valideynlər rüşvət verərək övladlarını cinayət məsuliyyətindən azad etdiklərini yazmaqdan qorxsa da, artıq iki hadisə üzrə valideynlər istintaqla əməkdaşlığa razılıq veriblər. Yura Hayrapetyan və Meis Hovhanesyanın valideynləri haqsızlığa uğramış övladlarının xilası üçün külli miqdarda rüşvət ödədiklərini təsdiq ediblər.

Cinayət işi açılıb, istintaq aparılır. Fakt sübuta yetirilərsə, müstəntiq N.Qasparyan və ona bu işdə yardımçı olan bir neçə zabitin də həbs ediləcəyi gözlənilir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində mövcud olan acınacaqlı şərait, hərbçilərin mütəmadi məruz qaldıqları təhqirlər səbəbindən əsgər və zabitlərin hərbi hissədən qaçması adi hala çevrilib.

İşğal edilmiş Ağdərə rayonu ərazisində yerləşdirilən düşmən ordusunun hərbi hissələrindən 10 gün ərzində 5 hərbi qulluqçu qaçıb ki, bunlardan biri də bölük komandiridir.

Kotayk hərbi komissarlığından çağırılmış, 2000-ci il təvəllüdlü Hamlet Adamyan bir neçə gün əvvəl döyüş postunda silahını da ataraq hərbi hissədən qaçıb. Eyni zamanda, bölük komandiri kapitan Tiqran Hovhanesyan, əsgərlər Rudik Xaratyan, Artyom Veranyan və Radik Georgiyanın da hərbi hissəni özbaşına tərk etdikləri bəlli olub.

Əsgərlər R.Xaratyan və A.Veranyan Yerevan şəhərində xuliqanlıq etdiklərinə görə həbs ediliblər. Onların hərbi qulluqçu olduqları bəlli olduqdan sonra hərbi polisə təhvil veriliblər. Məhkəmənin qərarı ilə fərarilik edən bölük komandiri kapitan Tiqran Hovhanesyan isə xidmətini davam etdirmək üçün ön xətdə olan başqa bölməyə göndərilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbi cinayətlərlə yanaşı, mülki əhaliyə qarşı törədilən cinayətlərin də sayı durmadan artır.

Bu günlərdə Ermənistanın Kotayk vilayətinin Qarni yaşayış məntəqəsinin sakini Marine Qriqoryan ərizə ilə prokurorluq orqanlarına müraciət edərək hərbi qulluqçu tərəfindən cinsi təcavüzə məruz qaldığını bildirib.

İlkin araşdırmaya görə cinayəti törədən şəxs işğalçı ordunun 2-ci təlim taborunun kiçik çavuşu Alber Aseryandır.

Cinayət işi açılıb, faktla bağlı vilayət prokurorluğu və Ermənistan hərbi polisi birlikdə araşdırma aparır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

AZƏRBAYCAN ORDUSU

# “Konflikt jurnalistikası məktəbi”nin növbəti auditoriya təlimi

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində növbəti auditoriya təlimi keçirildi.*






Polkovnik İdris Məhərrəmov ordu quruculuğu istiqamətində aparılan uğurlu işlərdən danışdı, ordumuzun bütün bölmələrində müasir məişət şəraiti yaradıldığını vurğuladı. "Dövlətimiz tərəfindən ordumuza yüksək diqqət və qayğı göstərilir. Şəxsi heyətin bütün təminatları yüksək səviyyədə təşkil olunur. Aparılan yenidənqurma işləri ilə yanaşı, cəmiyyətlə ordunun sıx əlaqəsi də təmin olunub. Bir ənənəyə çevrilən "Açıq qapı" günü tədbirlərində hərbi hissələrin qapıları valideynlərin, ictimaiyyət nümayəndələrinin üzünə açılır. İstənilən vətəndaş hərbi hissədə yaradılan şəraiti gəlib görə bilir. Bu reallıqların cəmiyyətə çatdırılmasında isə hərb sahəsindən yazan jurnalistlərin üzərinə böyük məsuliyyət düşür. Ordumuzda gedən hərtərəfli inkişafı istər ölkə mediasına, istərsə də xarici mediaya dolğun və real şəkildə çatdırmaq sizin ən ümdə vəzifənizdir. Ordu haqqında hər hansı fakt əldə etdikdə onu cəmiyyətə müvafiq qurumla dəqiqləşdirdikdən sonra ötürməlisiniz. Unutmayın ki, ordu dövlətin sütunu, xalqın qürur mənbəyidir. Siz imkan verməməlisiniz ki, yalnış faktlarla kimlərsə ordunun nüfuzunu aşağı salmağa çalışsın. Biz döyüş meydanında düşmənlə mübarizə apardığımız kimi, sizlər də sosial şəbəkələrdə bu mübarizəni davam etdirməlisiniz."

Çıxışına davam edən polkovnik İ. Məhərrəmov Azərbaycan Ordusunun bütün qoşun növlərində xidmət edən hərbi qulluqçuların, eləcə də xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kursantlarının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında məlumat verdi. Polkovnik hər bir hərbi qulluqçuya və hərbi vəzifəliyə onun qulluq vəziyyətindən, hərbi və ya xüsusi hazırlığından, hərbi xidmət müddətindən, ehtiyatda vəziyyətindən, qoşun növünə və ya xidmətinə mənsubiyyətindən və xidmətlərindən asılı olaraq müvafiq hərbi rütbələrin verildiyini vurğuladı. O bildirdi ki, hərbi qulluqçulara və hərbi vəzifəlilərə digər hərbi rütbələrin verilməsi, bir qayda olaraq, növbəlik qaydasında "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin tələblərinə uyğun olaraq həyata keçirilir.

Layihənin rəhbəri Əlisəfa Mehdiyev jurnalist məsuliyyətindən danışaraq bildirdi ki, jurnalistin məsuliyyəti onun fəaliyyətindən irəli gələn tələblərə peşəkar yanaşması, baş verən hadisələri müqayisə və təhlil edərkən peşə borcunun vacib olduğunu unutmaması deməkdir. "Demokratiyanın əsas sütunu sayılan azad mətbuat və söz azadlığı olmadan vətəndaş cəmiyyəti qurmaq mümkün deyil. Vətəndaş cəmiyyəti məsuliyyətli cəmiyyətdir. Burada hər kəs, xüsusilə də jurnalistlər daha məsuliyyətli olmalıdırlar. Ona görə ki, jurnalistika hadisələri insanların müzakirəsinə çıxarmaq, ictimai rəy formalaşdırmaq gücünə malikdir. Bununla yanaşı, hər bir jurnalist bilməlidir ki, kütləvi informasiya vasitələri haqqında qanunda deyildiyi kimi, dövlət sirlərini yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli irqi, sosial ədavəti, yaxud dözülməzliyi təbliğ etmək, yalan və qərəzli yazılar çap etmək, böhtan atmaq yolverilməzdir."

Auditoriya təliminin sonunda layihə rəhbəri 21-30 iyul tarixlərində baş tutacaq çöl təlimlərindən də danışaraq, təlimalanlar üçün hazırlanmış xüsusi fərqlənmə nişanlı jiletləri və baş geyimlərini onlara təqdim etdi.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

*Əsgərə məktub*

# Böyük Qələbə ərəfəsindəyik

Salam, əsgər qardaşım!

Məni xatırlayırsanmı? Ötən ayın əvvəlində xidmət etdiyin hərbi hissədə ezamiyyətdəydim. Onda komandiriniz Ayxan Nəsirov sizin mənəvi-psixoloji hazırlığınızdan da, döyüş hazırlığınızdan da qürurla danışmışdı. Zabitin sizə - Azərbaycan əsgərinə bu səviyyədə, bu səmimiyyətdə ehtiramı ürəyimi dağa döndərmişdi. Onda torpaq, dövlət, dövlətçilik, müharibə, şəhidlik, qələbə haqqında dediklərinizi Vətən sevginizi şərtləndirən mənəvi, ruhi amil bilmişdim.

Sağollaşanda məktub yazacağımı demişdim. Yazıram. Çoxunuzu tanıyıram. Elə buna görə də ad-soyad yazmaq istəmədim; siz də bilirsiniz ki, Azərbaycan əsgəri adından gözəl səslənişi ola bilməz. Bu gözəl səslənişi hamınıza ünvanlayıram.

Səngərdə sizinlə söhbətləşəndə bir daha əmin oluram ki, Böyük Qələbə ərəfəsindəyik. Bu əminlik sizə güvənənlərin əminliyidi, bu əminlik illərin o üzündə qalan tariximizi bu günümüzə bağlayan milli-xəlqi ruhun əminliyidi - qəhrəmanlığın əminliyidi, bu əminlik şəhidlərin ruhuna ehtiramın əminliyidi...

Sizin səmimi söhbətinizin hökmüydü ki, yayın istisindən zərrəcə narahat olmadıq. Hər birinizin döyüş əzmi, qələbə ruhu mənə 2016-cı ilin aprelin əvvəllərində səngərlərdə eşitdiklərimi xatırladırdı; hər kəlmədə Yerin Göyə, Göyün Yerə sədaqəti biçimində dönməz bir inam vardı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Aprel döyüşləri dərsliklərə salınmalıdır" kəlamını da xatırladıq, Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş möhtəşəm paradda dediklərini də: “Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək.”




Əsgər qardaşım, hamı bilir ki, heç biriniz Ağdaban, Bağanis Ayrım, Meşəli, Qaradağlı, Xocalı faciələrini unutmayıbsınız. Hamı onu da bilir ki, müharibə tariximizin qəhərli tarixi olan bu faciələri heç zaman unutmayacaqsınız. Ona görə hər biriniz qəhrəmanlarımızın qəhrəmanlığının mahiyyətini dərk etdiyinizə görə, düşüncələrinizə, varlığınıza hopdurduğunuza görə, onların döyüş yolunu qələbəylə başa çatdırmaq niyyətiylə xidmət etdiyinizə görə əzizimizsiniz.

Sizinlə səngərlərdə şəhidlikdən, şəhidlərdən də danışmışıq. Hər dəfə sizin dünyaduyumunuza rəğbətim bir söhbətlik artıb. Döyüş növbəsindən qayıtmış əsgər dostunla baxışlarınızın necə kəlmələşməyi də yadımdadı. Onda komandirinizin dediklərini də unutmamışam:

- Mübariz İbrahimovun son döyüşündən əvvəl yazdığı məktubu Azərbaycan əsgərinin Vətən sevgisinin təsdiqi bilənlər nə qədər haqlıdır! O məktuba bütün şəhidlərin son döyüşdən qabaq yazdığı məktub deyərdim.

Onda "Hər birimiz Mubariz İbrahimov kimi qətiyyətiylə döyüşəcəyik. Şəhidlərimizin ruhunu sıramızda bilib döyüşəcəyik", - dediniz və könlümüzü telləndirdiniz. Onda komandiriniz sizə baxmışdı, mən komandirinizə. O baxışlar minnətdarlıq baxışlarıydı. Belə əsgər olduğunuza görə sizə komandirinizin minnətdarlığı, sizin kimi əsgərlərə görə komandirinizə jurnalist minnətdarlığı. Biri digərini tamamlayan bu minnətdarlığın hər ikisi həm ayrılıqda, həm də birlikdə şəhidliyə, şəhidlərə ehtiramın təsdiqiydi. Tam qətiyyətlə və səmimiyyətlə deyirəm ki, müharibə tarixində yaşadığım ən yadda qalan anlardanıydı o anlar. O anları mənə siz yaşatmışdınız, əsgər qardaşım, sizin vətənsevərliyiniz yaşatmışdı...

2016-cı ilin mayın sonlarında Cocuq Mərcanlıda ezamiyyətdəydim. Əsgərlərin döyüş əzmi ürəyimi dağa döndərmişdi. Lələtəpədən təntələk əsən yel Arazın sahili boyunca uzanan qamışlığı tərpədirdi. Bu tərpənişə qara niyyət də qısıla bilərdi. Diqqəti həmin səmtdən üzülməyən əsgərlərdən biri demişdi:

- Müharibə başa çatmayıb. Ona görə səngərlərdəyik. Döyüş növbətçiliyi aparmaq əsgərlərin bilavasitə vəzifə borcudu, digərləri də diqqətli olmalıdı.

Sən belə düşünən, belə xidmət edən əsgərlərin amal, əqidə davamçısısan, əsgər qardaşım. Sizi belə tanıyırıq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasındadır" - fikrinin qürurunu sizinlə səngərlərdə könül xoşluğuyla birlikdə çox yaşamışıq. Həmin anlarda da "Qalib gələcəyik!" - inamıyla şəhidlərimizdən söz açıbsan, onların qəhrəmanlığından danışıbsan. Hər kəlməndə kövrəklik qarışıq qürur görmüşəm. Bu bənzərsiz qüruru sənin Azərbaycan əsgərinə, azərbaycanlı gəncin azərbaycanlı qəhrəmana sevgisinə tən bilmişəm...

Mənim əsgər qardaşım, Səməndərə de ki, xahişini unutmamışam - məndən məxsusi ona həsr olunmuş sevgi şeiri istəmişdi. Yazmışam. Yaxın vaxtlarda özünə çatdıracam. İndi hamınıza ithaf etdiyim şeiri göndərirəm:

*Yaxınlarda ayrı cür
söküləcək dan yeri
Yenə üzə güləcək
ləçək-ləçək dan yeri.
Sizin gəlişinizə
dikələn çiçəklərdən
şeh içəcək dan yeri.*

*Ayrı cür açılacaq
Səhər, əsgər qardaşım.
İşğala, işğalçıya
sonuncu nəfəs olar
sizin qazandığınız
Zəfər, əsgər qardaşım!..*

**Rəşid HÜSEYNOV,
əməkdar jurnalist**

Baş redaktor
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

Növbətçi
baş leytenant
Günay TAĞIYEVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 528
Nüsxə 3950